# FS Pool Master 3025
# Çökdürücü

## Təyinatı:

FS Pool Master 3025 bulanıq hovuz suyunu təmizləmək üçün nəzərdə tutulmuşdur. Preparat çirklərin sudan ayrılma prosesini sürətləndirir və daha böyük və sıx çöküntü əmələ gətirir. Bu filtrlərin ömrünü uzadır və su təmizləyici stansiyala daha çox suyu təmizləməyə imkan verir.

## Üstünlüklər:

- Bulanıq suyu effektiv və sürətli şəkildə təmizləyir
- Uzunmüddətli effektə malikdir
- İstifadəsi asandır
- Qənaətli

## İstifadəyə dair göstərişlər:

Preparat istifadə etməzdən öncə suyun pH səviyyəsi (7,0-7,4) və sərbəst xlorun miqdarı (0,1-0,5 mq/l) yoxlanılır və lazım olduqda tənzimlənir.

- İlkin konsentrasiyanı 5-10 dəfə azaltmaqla məhlul hazırlanır
- Filtrlərin işi dayandırılır
- Hovuzun perimetri boyu məhlul suya əlavə olunur və 12 saat gözlənilir.
- Hovuzun dibində yığılmış çöküntü tozsoran ilə təmizlənir və filtrlər işə salınır.

## Dozaj:

Hovuz suyunun bulanıqlığından asılı olaraq 10 $m^3$ suya 25-80 ml preparat əlavə olunur.

## Saxlama və təhlükəsizlik tədbirləri:

Bağlı konteynerdə sərin, quru yerdə saxlayın. Birbaşa günəş şüalardan qoruyun. Qida və məişət əşyaları ilə birlikdə saxlamayın. Preparatdan istifadə zamanı qoruyucu eynək və əlcəklərdən istifadə edin. Göz və dəri ilə təmasdan çəkinin. Göz və dəri ilə təmasda olduqda, bol su ilə yuyun və lazım olduqda həkimə müraciət edin.

## Məhsulun istifadəsi və saxlanması zamanı riayət edilməli olan qaydalar:

İstifadə etməzdən əvvəl etiket və təhlükəsizlik pasportunu oxuyun.
Həkim məsləhəti tələb olunarsa, etiketi və ya təhlükəsizlik pasportunu göstərin.
Başqa bir preparat və ya maddə ilə qarışdırmayın.
Preparatdan istifadə edərkən yemək yeməyin, içki içməyin və siqaret çəkməyin.
Toz/tüstü/qaz/duman/buxar/aerozollarla nəfəs almayın. Göz, dəri və ya paltarla təmasdan çəkinin.
Qoruyucu əlcəklər/qoruyucu geyimlər/göz/üz qoruyucularından istifadə edin.
Çirklənmiş paltarları çıxarın və yenidən istifadə etməzdən əvvəl yuyun.
Yalnız orijinal qablaşdırmada və yaxşı havalandırılan yerdə saxlayın. Qabı möhkəm bağlayın.
Qabı güclü təsirlərdən qoruyun. Qabı dik saxlayın.
İşçilər risk qiymətləndirməsində göstərilən nəzarət və qoruma tədbirlərini başa düşməli və onlara əməl etməlidirlər. İşçilər öyrədilməli, təlimatlandırılmalı, izlənilməli və adekvat, dəqiq məlumatlarla təmin edilməlidir.
Tərkibini/qablaşmanı beynəlxalq/milli/yerli qaydalara uyğun olaraq təhlükəli tullantı kimi atın.

## Piktoqram

